Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 17-22**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **с. 17-22**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 17-22**

UOT 78:371

V.M.Əliyeva
pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68

ÜMUMTƏHSİL MƏKTƏBDƏ SİNİFDƏNXARİC MUSİQİ TƏRBİYƏSİ. ONUN FORMALARI VƏ NÖVLƏRİ

Açar sözlər: *sinifdənxaric iş, dərnək, musiqi mədəniyyəti, təlim-tərbiyə, yaradıcı qabiliyyətlər*

Sinifdənxaric iş şagirdlərin önündə böyük imkanlar açır. Onlar sevdiyi işlə daha dərindən məşğul ola bilir, ümumiyyətlə, bu iş musiqiyə daha böyük marağı, yeni bilik və bacarıqların əldə edilməsinə həvəs oyadır. Şagirdlər məktəb dərslərinin həyatla əlaqəsini şəxsi təcrübələrində müşahidə edir, musiqi dərslərində aldıqları bilik və bacarıqları sinifdənxaric işdə də fəal şəkildə tətbiq etməyi öyrənirlər.

Elmi yenilik: Məqalədə musiqi təlim-tərbiyəsi ilə bağlı sinifdənxaric iş formaları və növləri araşdırılır. İlk dəfə olaraq müxtəlif məktəb dərnəklərinin inteqrasiyalı fəaliyyəti göstərilir.

В.М.Алиева

ВНЕКЛАССНАЯ РАБОТА ПО МУЗЫКАЛЬНОМУ ВОСПИТАНИЮ В ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛЕ. ЕЕ ФОРМЫ И ВИДЫ

Ключевые слова: *внеклассная работа, кружок, музыкальная культура, воспитание и обучение, творческие способности*

Участие во внеклассной работе открывает перед школьниками большие возможности. Например, углубленно заниматься тем, что им нравится, вообще, это развивает любовь и интерес к музыке, получение новых знаний и умений. Дети могут на личном опыте убедиться, что школьные уроки музыки тесно связаны с жизнью, что полученные ими на уроках музыки знания, умения и навыки активно востребуются и во внеклассной работе.

Научная новизна: В статье рассматриваются формы и виды внеклассной работы по музыкальному воспитанию и обучению. Впервые показана интеграционная деятельность различных кружков.

V.M.Aliyeva

EXTRA CLASS WORK ON MUSICAL EDUCATION IN A GENERAL EDUCATIONAL SCHOOL. ITS FORMS AND TYPES

Key words: *extracurricular activities, circle, musical culture, education and training, creative abilities*

Participation in extracurricular activities opens great opportunities for students. For example, to deeply engage in what they like, in general, it develops a love and interest in music, obtaining new knowledge and skills. Children can experience from personal experience that school music lessons are closely related to life, and that the knowledge and skills acquired by them in music lessons are actively in demand in extracurricular activities.

Scientific innovation: The article discusses the forms and types of extracurricular activities in musical education and training. For the first time the integration activities of various circles are shown.

Ümumtəhsil məktəblərində musiqi tərbiyəsinin əsas forması olan dərs ilə bərabər həm də musiqi tərbiyəsi üzrə sinifdənxaric iş formaları mövcuddur. Bu formaların müxtəlifliyi musiqi müəlliminin yaradıcı təşəbbüsündən və məktəb rəhbərliyinin bu işə münasibətindən asılıdır.

Sinifdənxaric işdə iştirak şagirdin önündə böyük imkanlar açır. Belə ki, o, sevdiyi işlə daha dərimdən məşqul ola bilər, ümumiyyətlə, bu iş musiqiyə daha böyük marağı, yeni bilik və bacarıqların əldə edilməsinə həvəs oyadır. Şagirdlər məktəb dərslərinin həyatla əlaqəsini şəxsi təcrübələrində müşahidə edir, musiqi dərslərində aldıqları bilik və bacarıqları sinifdənxaric işdə də fəal şəkildə tətbiq etməyi öyrənirlər. Müəllimdə sinifdənxaric iş prosesində maraq göstərən uşaqları daha da yaxından musiqiyə cəlb etmək, müntəzəm şəkildə onların yaradıcı fəallığını formalaşdırmaq imkanı yaranır.

Sinifdənxaric işi təşkil edərkən müəllim aşağıdakıları nəzərdə saxlamalıdır:

– musiqi məşğələlərinin bütün növləri şagirdlərin mənəvi-estetik tərbiyəsinə, onların musiqi zövqü və maraqlarının formalaşdırılmasına istiqamətləndirilməlidir;

– müxtəlif metodların geniş istifadəsi şagirdlərin bədii tələbatlarının

oyanışına, bədii təxəyyülün və musiqili yaradıcı qabiliyyətlərinin inkişafına təkan verməlidir;

– məktəblilərdə maarif işinə maraq, musiqi mədəniyyətini təbliğ etmək istəyi tərbiyə olunmalıdır;

– musiqi tərbiyəsi üzrə çoxşaxəli işin uğuru böyük dərəcədə uşaqların müxtəlif musiqi fəaliyyəti növlərinin yaxşı mənimsənilməsindən və ona qarşı təlbat hisslərinin yaranmasından asılıdır;

– hər bir konkret halda nəzərə alınmalıdır ki, uşaqların zövqü və maraqlarının formalaşmasına kütləvi informasiya vasitələri, yaşıdları və ailə böyük təsir göstərir.

Sinifdənxaric musiqi tərbiyəsi üzrə iş iki əsas istiqamətdə aparılır: dərnək forması və kütləvi formalar.

I. Dərnək formaları. Buraya xor, vokal, orkestr, rəqs, instrumental, vokal-instrumental, folklor və digər dərnəklər aiddir. Buraya həmçinin musiqili teatr daxildir. Bu və ya digər dərnəkdə şagirdlər öz istəkləri ilə iştirak edirlər. Bununla yanaşı dərnəklərə üzv olmaq üçün münasib musiqi qabiliyyətlərinin müəyyən inkişaf səviyyəsi tələb olunur. Sözsüz ki, bu səviyyə xüsusi musiqi məktəb və ya studiyalarda tələb olunanlardan daha aşağıdır. Təcrübə göstərir ki, hər bir normal sağlam uşağın bu sahəyə maraqı olduqda bütün musiqi qabiliyyətlərini, o cümlədən də səsi, ritm hissiyatını və hətta musiqili eşitmə qabiliyyətini inkişaf etdirmək mümkündür.

Xor dərnəkləri adətən yaş qruplarına görə uşaqları birləşdirir. Bir-çox sinifləri əhatə edən ümumməktəb xorunun yaradılması çox böyük tərbiyəvi əhəmiyyətə malikdir. Xorda adətən 25-30 nəfərdən 80-100 nəfərə qədər iştirakçı olur. Məşğələlərin müddəti əsasən iştirakçıların yaşından asılıdır (45 dəqiqədən 90 dəqiqəyə qədər). Hər bir məşğələ planlaşdırılır, müəllim onu maraqlı və rəngarəng etməyə çalışmalıdır. Müəllim uşaqların səs aparatının quruluşunun və formalaşdırılmasının fizioloji xüsusiyyətlərini bilməlidir. Həmçinin repertuarın seçimi də böyük diqqətlə aparılmalıdır.

İnstrumental dərnəklərdə uşaqları müxtəlif musiqi alətlərində çalmağı öyrədirlər. Məşğələlər hər bir iştirakçıilə fərdi olaraq keçirilir ki, bu da uşaqların musiqi qabiliyyətlərinin fəal inkişafını təmin edir, musiqi zövqünü tərbiyə edir və musiqiyə marağını artırır. Ən əsası odur ki, bucür məşğələlər təkcə müəyyən repertuarın və bir sıra vərdişlərin texniki mənimsənilməsi işinə çevrilməsin. Dərnək iştirakçılarının konsert çıxışlarının təşkili çox vacib bir amildir.

Uşaq folklor ansamblı. Onun yaradılması üçün müəllim xalq yaradıcılığına, onun janr zənginliyi və regional xüsusiyyətlərinə çox yaxşı bələd olmalıdır. Artıq 7-8 yaşlı uşaqlar xalq mahnılarını, aşıq havalarını çox böyük həzz alaraq ifa edirlər. Ansamblın repertuarına bu və ya digər regiona xas olan

sadə, uşaqların ifası üçün mümkün olan xalq mahnılarını və özündə parlaq xalq ənənələrini təcəssüm etdirən müəllif əsərlərini (aşıq və s. mahnılarını) daxil etmək lazımdır. Onların məzmunu uşaqlara aydın və maraqlı, melodiyası isə uşaq səs diapazonuna uyğun olmalıdır. Uşaqları Azərbaycan folkloruna cəlb etmək üçün xüsusi hazırlanmış (bəlkə də bəzi elementləri öz əlləri ilə) milli geyimlər, sadə alətlər (dəf, nağara və s.) böyük rol oynayır.

Məktəb orkestri və ya xalq çalğı alətləri ansamblı. Təəssüflə qeyd etməliyik ki, belə kollektivlər çox nadir hallarda mövcuddur, lakin təcrübə göstərir ki, onlar musiqi mədəniyyətinin təbliğatında çox mühüm rol oynaya bilər. Azərbaycan xalq çalğı alətlərinin konstruktiv xüsusiyyətlərinə görə onlarda ifanın tez bir zamanda mənimsənilməsi mümkündür. Bəzi bölgələrdə və regionlarımızda uşaqlar heç xüsusi musiqi təhsilini almadan həvəskar olduqları üçün müstəqil olaraq bir sıra alətlərdə çalmağı öyrənirlər. İştirakçıların təlimi hazırlıq qrupunda aparılır. Uşaqları alətlərə bölərkən, onların hər birinin fiziki və musiqi qabiliyyətlərini, eləcə də istəklərini nəzərə almaq lazımdır.

Vokal-instrumental ansambl. Bu yuxarısinif şagirdləri arasında ən populyar dərnək növüdür, çünki yeniyetmə dövründə onlarda dəbdə olan musiqi üslubu və alətlərə qarşı (gitara, sintezator və s.) maraqları artır, həmçinin də bu yolla öz yaşıdları arasında populyarlıq qazanma üçün bir vasitədir. Bundan başqa, pop və estrada musiqisi asan qavranılır və özünün xarici sadəliyi və parlaqlığı ilə cəlb edir. Belə ansamblın iştirakçılarını çoz vaxt çalğı prosesinin özü cəlb edir, nəinki əsərlərin bədii dəyəri. Bu isə incə zövgün formalaşmasına ziyan verir, maraqlarıisə populyar rok-qrupları təqlid etmək çərçivələri ilə daraldır. Bununla bərabər, şagirdlərin yüngül müasir musiqiyə maraqları vasitəsilə onların diqqətini estrada janrında olan yüksək musiqi nümunələrinə yönəltmək olar və onların musiqi mədəniyyətini daha yüksək səviyyəyə qaldırmaq mümkündür. Bunun üçün onların repertuarına estrada üslubunda stilizə olunmuş xalq mahnılarını, klassik instrumental pyesləri daxil etmək lazımdır. Çox vaxt hətta "çətin" yeniyetmələrin musiqi mədəniyyətinin, mənəviyyatlarının artmasına və təlim-tərbiyəsinə bu yolla nail olmaq mümkündür.

Məktəbli musiqili tetr. Bu işə müxtəlif maraqlara sahib olan bir çox şagirdləri cəlb etmək olar, çünki opera tamaşasının qoyuluşu üçün solistlər, xor, rəqs qrupları, kütləvi səhnələrin iştirakçıları, rəssam və dekoratorlar, işıqlandırıcılar, stilistlər və qrimyorlar, və s. iştirakçılar lazımdır. Tamaşanın hər bir iştirakçısı öz sevdiyi işlə məşqul olarkən eynizamanda musiqi sənətində cəlb olunur. Musiqili teatra rəhbərlik edən müəllim ciddi şəkildə repertuar və əsərin uşaqlara necə təqdim edilməsi barəsində düşünməlidir. Bu məzmunu, yaranması tarixi, müəllifləri barəsində maraqlı hekayə, musiqini dinlədikdən sonra isə – qəhrəmanların musiqili xarakteristikası haqqında söhbət ola bilər.

Uşaqların operanın ideyasını daha yaxşı anlaması üçün ifadəlilik vasitələrin təhlilini aparmaq, əsas melodiyaları yadda saxlamaq yardın edə bilər. İştirakcıların və dublyorların seçimi kollektivdə müzakirə edilməlidir və rəhbərin (müəllimin) izahları ilə müşayiət olunmalıdır. Kostyumların və dekorasiyaların seçimi də uşaqların yaratdıqları eskizlərin müsabiqəsi əsasında həyata keçirilə bilər. Onların hazırlanmasına valideynləri və yuxarı sinif şagirdləri də cəlb etmək olar. Sonra hər bir nömrə ayrıca məşq edilir, daha sonra tamlıqla tamaşanın məşqləri aparılır. Sonuncu mərhələ – bəzəkli gözəl afişaların hazırlanmasıdır.

Opera tamaşalarında iştirak uşaqların yaradıcı qabiliyyətlərini, fantaziya və təxəyyüllərini inkişaf etdirir – bu çox vacib məqamdır. Belə teatr incəsənət vasitəsilə geniş və təsirli tərbiyə işinin mərkəzi ola bilər. Burada tədricən daimi iştirakçılar formalaşır, lakin eynizamanda onlar daima yenilənir. Tamaşanın hazırlanmasına digər dərnək iştirakçılarını da cəlb etmək olar.

Beləliklə, musiqi dərnəkləri şagirdlərin meyllərini nümayiş etdirmələri üçün, musiqi və yaradıcı qabiliyyətlərin inkişafı üçün geniş imkanlar yaradır. Dərsin çərçivələrini genişləndirərək onlar şagirdlərin maraq və zövqlərinin tərbiyəsində mühüm rol oynayır.

II. Sinifdənxaric işin kütləvi formaları. Bu formaların əsas məqsədi – çox sayda uşaqların iştirakıdır. Kütləvi tədbirlərin keçirilməsi şagirdlərdən hər hansı bir xüsusi qabiliyyətləri, bilik, bacarıq və vərdişləri tələb etmir. Kütləvi tədbirlər dedikdə, musiqi qabiliyyətlərin və inkişaf səviyyəsinin fərdi yoxlanılmasını və planlı musiqi təlimini tələb etməyən, epizodik xarakter daşıyan tədbirlər nəzərdə tutulur. Burada şagirdlərin istəkləri və maraqları kifayətdir. Belə marağın yaranması isə təşkilatçı-müəllimin əsas vəzifəsidir.

Sinifdənxaric msiqi tərbiyəsinin kütləvi formalarına aşağıdakılar aiddir: məktəblilər üçün mühazirə-konsertlər, musiqi tamaşalarına və konsertlərə kollektiv şəkildə baxışlar, musiqili bayramlar, karnavallar, müsabiqələr, viktorinalar və s.

Bu cür tədbirlər musiqili-maarifləndirici funksiyaları yerinə yetirərək, eyni zamanda yaxşı musiqi qabiliyyətlərinə malik olan şagirdlərin üzə çıxarılmasına qulluq edir, onların musiqi-estetik hisslərini və tələbatlarını dərinləşdirir.

Beləliklə, sinifdənxaric musiqi tərbiyəsinin müxtəlif forma və növləri mövcuddur. Onların istifadəsi və tətbiqi musiqi müəllimindən pedaqoji ustalığı, peşəsinə və uşaqlara qarşı sonsuz məhəbbəti, yaradıcı qabiliyyətləri və fədakarlığı tələb edir.

ƏDƏBİYYAT

1. Qədimova J.H. Musiqinin tədrisi metodikası. Bakı, 2007, 321 səh.
2. Quliyev S. Musiqi inkişafı və musiqi tərbiyəsi. Bakı, 1981, 90 səh.
3. Sadıqov F.B. Məktəb özfəaliyyət musiqi dərnəkləri. Bakı, 1988, 105 səh.
4. Арчажникова Л.Г. Профессия учитель музыки: Книга для учителя. М.: Просвещение, 1984. 111 стр.
5. Богатырева В.В. Тенденции развития музыкального воспитания в учебном процессе и внеклассной работе общеобразовательных школ. Смоленск, 2015, 200 стр.

Məqalənin redaksiyaya daxil olma tarixi: 03.11.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2019
Məqalənin çapa qəbul olunma tarixi: 29.12.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.